# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏN SƏNAYESİNDƏ BENEFİSİAR SAHİBLİK MƏLUMATLARININ AÇIQLANMASINA DAİR YOL XƏRİTƏSİNİN İCMALI

**Dekabr 2016**

---

## 1. Giriş

Azərbaycan Respublikasının mədən sənayesində benefisiar sahibliyin açıqlanması üzrə olan bu yol xəritəsi (bundan sonra Yol Xəritəsi") Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün (bundan sonra "MSŞT") tövsiyələrinə uyğun hazırlanmışdır.

Bu Yol Xəritəsi 1 yanvar 2020-ci il tarixinədək Azərbaycan Respublikasının mədən sənayesində benefisiar sahibliyin açıqlanması üzrə qabaqcıl beynəlxalq təcrübəyə və MSŞT-nin tövsiyələrinə əsaslanan və özündə görüləcək tədbirləri və vaxt cədvəlini ehtiva edən çərçivənin hazırlanmasını nəzərdə tutur.

Bu Yol Xəritəsi yekun məhsul və bu sahədə olan bütün sualları özündə əks etdirmək məqsədi güdmür.  Əksinə, burada qeyd edilən yekun nəticəyə nail olmaq üçün atılmalı olan addımlar öz əksini tapmışdır.  Bir sözlə, bu Yol Xəritəsi benefisiar sahiblik üzrə çərçivənin yaradılması üçün görülməli olan tədbirləri özündə ehtiva edir ki, həmin tədbirlər də sonda qeyd edilən yekun nəticələrin əldə olunmasını təmin edəcəkdir.

## 2. Əhatə Dairəsi

MSŞT Standartının 2.5-ci bəndinə əsasən, MSŞT razılaşmışdır ki, 1 yanvar 2020-ci il tarixinədək bütün iştirak edən ölkələr təmin etməlidirlər ki, mədən aktivləri üçün tenderdə iştirak edən, bu sahədə fəaliyyət göstərən və ya investisiya yatıran hüquqi şəxslər öz benefisar sahiblərinin kimliyini açıqlasınlar.  Bundan əlavə, siyasi xadim olan benefisiar sahiblər də müəyyən olunmalı və təklif edilən çərçivə daxilində açıqlanmalıdırlar.

## 3. Məqsəd

Benefisiar sahibliyin açıqlanması çərçivəsinin əsas məqsədi mədən sənayesində daha çox şəffaflığa nail olmaq və məsuliyyətsiz hüquqi şəxslər tərəfindən korrupsiya və vergidən yayınma hallarının qarşısının alınmasıdır.

## 4. Benefisiar Sahibliyin Anlayışı

Baxmayaraq ki, xüsusi və Azərbaycan özəl hüquqi anlayış bu Yol Xəritəsinin tamamlanma tarixinə qədər hazırlanacaqdır, MSŞT ümumi şəkildə benefisiar sahibliyi bu cür tərif edir: hər hansı hüquqi şəxsə münasibətdə ona son olaraq birbaşa və ya dolayı sahiblik və ya nəzarət edən fizik şəxslər. Başqa sözlə desək, bu layihənin məqsədləri üçün, hüquqi şəxs benefisiar sahib ola bilməz - benefisiar sahib bütün hallarda yalnız fiziki şəxs ola bilər.

## 5. Yol Xəritəsinin Strukturu

Yol Xəritəsi cədvəl şəklində tərtib olunmuş və özündə aşağıdakı məlumatları əks etdirir:

- Yol Xəritəsi tədbirlər kateqoriyası;
- eyni tədbirlər kateqoriyasının məqsədi;
- planlaşdırılan konkret tədbirlər;
- məsul şəxslər;
- zaman çərçivəsi; və
- tələb olunan maliyyələşmə.

## 6. Başlıca Tədbirlər

Bu Yol Xəritəsi benefisiar sahibliyin açıqlanması çərçivəsi üzrə aşağıdakı ümumi kateqoriyalar üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- benefisiar sahiblik üzrə ümumi platformanın yaradılması və müvafiq qanunvericilik aktlarının işlənib hazırlanması məqsədilə müvafiq dövlət orqanları, biznes strukturları və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlıq etmək, müzakirə və məsləhətləşmələr aparmaq;
- qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi, tələb olunan zəruri mexanizmlərin işlənib hazırlanması və lazımı qanunvericilik aktları layihələrinin tərtib olunması;
- bilik və bacarıqların artırılması, habelə təbliğat işlərinin aparılması;
- benefisiar sahiblik üzrə açıq reyestrin yaradılması və digər təşkilati və hüquqi işlərin tamamlanması; və
- Yol Xəritəsinin icrasına nəzarət üzrə monitorinqin keçirilməsi.

## 7. Monitorinq

Müvafiq tədbirləri həyata keçirən müvafiq məsul şəxslərin hesabatlarını dinləmək və təsdiq etmək üçün hər 6 aydan bir ÇQ-nin iclaslarının keçirilməsi nəzərdə tutulmuşdur.

## 8. Büdcə

Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 600 000 (altı yüz min) manatlıq (hər il üçün 200 000 manat) toplam büdcə müəyyən edilmişdir və maliyyələşmənin tam şəkildə ARDNF tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Yol xəritəsində nəzərdə tutulan tədbirlərin kənar şəxslər tərəfindən icra olunması nəzərdə tutulduğu hallarda, həmin şəxslər tender əsasında, ÇQ-nin qərarı ilə cəlb ediləcəklər. Bu səbəbdən, hər bir tədbirə özəl büdcənin Yol Xəritəsində əks olunması mümkün deyildir.

## 9. Məzmun

Bu İcmal Yol Xəritəsini təqdim edir və onu özündə eyni Yol Xəritəsini və ayrıca vaxt cədvəlini ehtiva edir.

**AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏN SƏNAYESİNDƏ**

**BENEFİSİAR SAHİBLİK MƏLUMATLARININ AÇIQLANMASINA DAİR YOL XƏRİTƏSİ**

| YOL XƏRİTƏSİ TƏDBİRLƏRİ ÜZRƏ KATEQORİYALAR | MƏQSƏD | TƏDBİRLƏR (PEŞƏKAR İNKİŞAF EHTİYACLARI, TEXNİKİ YARDIM) | MƏSUL ŞƏXS | MÜDDƏT | MALİYYƏ YARDIMI (XƏRCLƏR VƏ MALİYYƏLƏŞMƏ) |
|---|---|---|---|---|---|
| **1. BS və milli islahat prioritetləri ilə əlaqə** | Daha yüksək səmərəlilik naminə, bu təşəbbüsün Hökumətin digər islahat planları və prioritetləri ilə uzlaşdırılmasına nail olmaq | ***a. Artıq görülmüş tədbirlər:***<br>• Mədən sənayesində şəffaflığın artırılması məqsədilə ÇQ-nin dəstəklənməsi və ÇQ ilə əməkdaşlığı təsbit edən Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Proqramı". Bu cür əməkdaşlıq və müzakirələr başlanmalıdır. | ÇQ və ARDNF | Yanvar 2017-iyun 2017 | Tələb olunmur |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | ***b. Görüləcək tədbirlər:***<br><br>• Bu təşəbbüsün Hökumətin korrupsiya ilə mübarizə sahəsində olan proqramlarına, planlarına və islahat təşəbbüslərinə daxil edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidenti yanında Korrupsiyaya Qarşı Mübarizə Komissiyası ilə əməkdaşlıq və müzakirələr. | ÇQ | Yanvar 2017-dekabr 2017 | Tələb olunmur |
| **2. BS üzrə tələb olunan hüquqi islahatlar** | BS təşəbbüsünün icra olunmasını təmin etmək məqsədilə, müvafiq qanunvericiliyə edilməli olan dəyişiklikləri müəyyən etmək və təşviq etmək | • Qanunvericiliyə aşağıdakı dəyişiklikləri etmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə müzakirlər aparmaq:<br><br>- benefisiar sahiblik anlayışı və | ÇQ və Katiblik | İyul 2017-dekabr 2017 | Tələb olunmur |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | benefisiar sahibliyin açıqlanması prosesinin təsbit olunması üçün Azərbaycan Respublikasının "Yerin təki haqqında" Qanununa müvafiq dəyişikliklərin edilməsi;<br><br>- BS-nin açıqlanması mexanizminin Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən aparılan kommersiya hüquqi şəxslərinin mövcud reyestrinə inteqrasiya edilmə məqsədilə Azərbaycan Respublikasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanununa müvafiq dəyişikliklərin edilməsi; | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | - mədən sənayesində benefisiar sahibliyin açıqlanmasının qadağan edilməməsi və "kommersiya sirri" anlayışı ilə əhatə olunmamasını təmin etmək məqsədilə, Azərbaycan Respublikasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanununa və Azərbaycan Respublikasının "Kommersiya sirri haqqında" Qanununa müvafiq dəyişikliklərin edilməsi;<br><br>- təklif olunan BS-nin açıqlanması mexanizminin həyata keçirmək üçün digər normative-hüquqi aktlara müvafiq dəyişikliklərin edilməsi (tələb olunarsa). | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | • Yuxarıda qeyd olunan dəyişikliklərin layihələrinin hazırlanması. | Kənar hüquq məsləhətçisi | Yanvar 2018-iyun 2018 | 100.000 AZN |
| **3. BS-nin açıqlanması üçün institusional çərçivə** | BS üzrə məlumatın toplanması və açıqlanması sahəsində uyğun və təcrübəli dövlət orqanının müəyyən olunmasının təmin edilməsi | • BS-nin açıqlanması mexanizminin mövcud kommersiya hüquqi şəxslərinin dövlət reyestri ilə uyğunlaşdırıla bilinməsi imkanını müəyyən etmək məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə əməkdaşlıq və müzakirələr.<br><br>• BS sahəsində məlumatların toplanması və açıqlanması ilə məşğul ola biləcək alternative qurumların nəzərdən keçirilməsi. | ÇQ<br><br>ÇQ | İyul 2017-dekabr 2017<br><br>İyul 2017-dekabr 2017 | Tələb olunmur<br><br>Tələb olunmur |
| **4. Benefisiar sahibliyin anlayışı** | Azərbaycan Respublikasının | • Mövcud beynəlxalq və xarici ölkələrdə | Kənar hüquq məsləhətçisi | İyul 2017-dekabr 2017 | 30.000 AZN |

| | | | | | |
|---|---|---|---|---|---|
| | qanunvericilik sistemi ilə uzlaşan müvafiq "benefisiar sahiblik" anlayışının işlənib-hazırlanması və təşviqi | mövcud olan anlayışların təhlili.<br><br>• Aşağıdakı başlıca elementləri özündə ehtiva edən benefisiar sahiblik anlayışının layihəsinin hazırlanması:<br><br>- sahiblik faizi;<br><br>- həm birbaşa, həm də dolayı sahibliyi özündə ehtiva etməli;<br><br>- bu anlayışın aid olduğu mədən sənayesi şirkətlərinin dairəsini dəqiqliklə müəyyənləşdirməli; və<br><br>-müvafiq hüquqi şəxsdə sahibliyə malik olan fiziki şəxsə (hüquqi şəxsə deyil) xitab etməlidir. | Kənar hüquq məsləhətçisi | Yanvar 2018-iyun 2018 | 60.000 AZN |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | • Təklif edilən anlayışı Azərbaycan Respublikası Prezidenti yanında Korrupsiyaya Qarşı Mübarizə Komissiyası ilə müzakirə etmək (birinci kateqoriya üzrə aparılmalı olan müzakirələrlə birgə);<br><br>• Təklif edilən anlayışı Azərbaycan Respublikasında fəaliyyət göstərən aparıcı mədən sənayesi şirkətləri və vətəndaş cəmiyyəti təşkilatları ilə müzakirə etmək (aşağıda qeyd edilən müvafiq müzakirələrlə birgə). | ÇQ<br><br>ÇQ | Yanvar 2017-dekabr 2017<br><br>İyul 2017-dekabr 2017 | Tələb olunmur<br><br>Tələb olunmur |
| **5. Siyasi Xadimlərin hesabat öhdəlikləri** | Azərbaycan Respublikasının qanunvericilik sistemi ilə uzlaşan "siyasi xadim" anlayışının daxil edilməsinin nəzərdən keçirilməsi | • "Benefisiar sahiblik" anlayışı ilə uzlaşmaya nail olmaq məqsədilə "Siyasi xadimlər" anlayışı və onların hesabat öhdəlikləri barədə milli | ÇQ | İyul 2017-dekabr 2017 | Tələb olunmur |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | qanunvericiliyin təhlili. | | | |
| **6. Toplanmali və açıqlanmalı olan məlumatın detallı olma səviyyəsi** | Bu təşəbbüs çərçivəsində toplanmalı və açıqlanmalı olan məlumatın adekvat və səmərəli detallılıq səviyyəsinin müəyyən olunması | • Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə müzakirə aparılması (3-cü kateqoriya üzrə müzakirələrlə birgə).<br><br>• Azərbaycanda fəaliyyət göstərən və birjalarda səhmləri satılmayan aparıcı mədən sənayesi şirkətlərin və vətəndaş cəmiyyəti təşkilatları ilə müzakirələrin aparılması (4-cü kateqoriya və aşağıdakı kateqoriyalar üzrə müzakirlərlə birgə).<br><br>• Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının "Fərdi məlumatlar haqqında" Qanunu ilə uzlaşacaq qədər | ÇQ<br><br>ÇQ<br><br>Kənar hüquq məsləhətçisi | İyul 2017-dekabr 2017<br><br>İyul 2017-dekabr 2017<br><br>Yanvar 2018-iyun 2018 | Tələb olunmur<br><br>Tələb olunmur<br><br>40.000 AZN |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | detallı olan toplama və açıqlanma səviyyəsinin müəyyən olunmasın | | | |
| **7. Məlumatarın toplanması və açıqlığı** | Uyğun və açıq məlumat toplanması mexanizminin müəyyən edilməsi | • BS üzrə məlumatları təqdim etməli olan şirkətlərin və onların vəzifəli şəxslərinin dairəsinin müəyyən olunması.<br><br>• Müxtəlif nazirliklər, mədən sənayesi şirkətləri və vətəndaş cəmiyyəti təşkilatları ilə əhatə olunacaq hüquqi şəxslərin dairəsinin müəyyən edilməsi məqsədilə məsləhətləşmələr<br><br>• Milli benefisiar sahibliyin açıqlanması formasının hazırlanması<br><br>• Benefisiar sahiblik üzrə açıq reyestrin təsis edilməsi üzrə | ÇQ<br><br>ÇQ<br><br>Kənar hüquq məsləhətçisi<br><br>Vergilər Nazirliyi və digər müvafiq icra hakimiyyəti orqanları | yanvar 2018-iyun 2018<br><br>İyul 2017-dekabr 2017<br><br>İyul 2018-dekabr 2018<br><br>İyul 2019-dekabr 2019 | Tələb olunmur<br><br>Tələb olunmur<br><br>70.000 AZN<br><br>64.000 AZN (Dövlət büdcəsi) |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | təşkilati və hüquqi addımların tamamlanması | | | |
| **8. Təqdim olunan məlumatın dəqiqliyinin təmin olunması** | Şirkətlər tərəfindən təqdim olunan məlumatların dəqiqliyinin təmin olunması | • Açıq reyestrə qeyri-dəqiq və köhnəlmiş məlumatın təqdim olunmasına görə inzibati məsuliyyət (cərimə) nəzərdə tutan qanunvericiliyə müvafiq dəyişiklik layihəsinin hazırlanması.<br>• Müvafiq dövlət orqanları, mədən sənayesi şirkətləri və vətəndaş cəmiyyət təşkilatları ilə bu mövzuda məsləhətləşmələr (yuxarıda və aşağıda qeyd edilən müvafiq müzakirələrlə bərabər)<br>• Məlumatın toplanmasından əvvəlki dövrlər üzrə olan şirkətlərin məlumatlarının dəqiqliyinin təmin | Kənar hüquq məsləhətçisi<br>ÇQ<br>Kənar hüquq məsləhətçisi | İyul 2018-dekabr 2018<br>İyul 2017-dekabr 2017<br>Yanvar 2018-iyun 2018 | 56.000 AZN<br>Tələb olunmur<br>30.000 AZN |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | edilməsi məqsədilə adekvat mexanizmin işlənib-hazırlanması.<br><br>• Açıq reyestrə təqdim olunan məlumatların həqiqiliyinin müəyyən olunması üçün təklif olunan qanunvericilik aktları layihələrinə təqdim olunmalı olan müvafiq sənədlərin siyahısının əlavə olunmasının nəzərdən keçirilməsi | Kənar hüquq məsləhətçisi | Yanvar 2018-iyun 2018 | 10.000 AZN |
| **9. Təqdim olunan məlumatların yenilənməsi** | Məlumatların vaxtında təqdim olunması və daim yenilənməsi | Məlumatların təqdim olunması və yenilənməsi üzrə uyğun müddətlərin müəyyən edilməsi üçün dövlət orqanları, mədən sənayesi şirkətləri və vətəndaş cəmiyyəti təşkilatları ilə müzakirələr (yuxarıda qeyd edilən müzakirələrlə bərabər). | ÇQ | İyul 2017-dekabr 2017 | Tələb olunmur |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Aşağıdakıları özündə ehtiva edən məlumatların toplanması mexanizminin işlənib-hazırlanması:<br><br>- bu təşəbbüsün həyata keçirilməsi üçün tələb olunan bütün qanunvericilik aktları qəbul edildikdən dərhal sonra məlumatların təqdim olunmasının tələb olunması; və<br><br>- əvvəl təqdim olunmuş məlumatlarda hər hansı dəyişiklik baş verdiyi təqdirdə müvafiq yenilənmiş məlumatın 30 gündən gec olmayaraq təqdim olunması öhdəliyinin müəyyən olunması. | Kənar hüquq məsləhətçisi | İyul 2018-dekabr 2018 | 50.000 AZN |
| **10. Biliklərin Artırılması** | Əhali, işgüzar dünya və vətəndaş cəmiyyəti təşkilatlarının bu | Bu yol xəritəsinin təqdim olunması üçün ictimai seminarın keçirilməsi. | Katiblik və kənar hüquq məsləhətçisi | Mart 2017 | 20.000 AZN |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təşəbbüs barədə məlumatlı olmalarını təmin etmək | Bu yol xəritəsində müəyyən edilən tədbirlər üzrə görülən işlər barədə ÇQ-nin internet səhifəsində yerləşdiriləcək yarım illik hesabat və ya məlumat büllütenlərinin yayılması.<br><br>Bu layihədə iştirak edən nazirliklər və digər dövlət orqanlarının əməkdaşları üçün təlim/seminarın təşkil olunması.<br><br>Mədən sənayesi şirkətlərinin nümayəndələri üçün təlim/seminarın təşkil olunması.<br><br>Vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri üçün təlim/seminarın təşkil olunması. | Katiblik<br><br>Katiblik və kənar hüquq məsləhətçisi<br><br>Katiblik və kənar hüquq məsləhətçisi<br><br>Katiblik və kənar hüquq məsləhətçisi | Mart 2017-dekabr 2019<br><br>Yanvar 2018 və sentyabr 2019<br><br>Mart 2018 və noyabr 2019<br><br>Mart 2018 və noyabr 2019 | 10.000 AZN<br><br>20.000 AZN<br><br>20.000 AZN<br><br>20.000 AZN |
| **11. Monitorinq** | Bu Yol Xəritəsi ilə nəzərdə tutulan tədbirlərin ardıcıl və düzgün həyata | Mütəmədi olaraq müvafiq tədbirləri həyata keçirən müvafiq məsul | ÇQ | İyun 2017, dekabr 2017, iyun 2018, dekabr 2018, iyun | Tələb olunmur |

| | | | | | |
|---|---|---|---|---|---|
| | keçirilməsini təmin etmək | şəxslərin hesabatlarını dinləmək və təsdiq etmək üçün ÇQ-nin iclaslarını keçirmək | | 2019 və dekabr 2019 | |

## QISALTMALAR

| | |
|---|---|
| **ÇQ** | Çoxtərəfli Qrup |
| **BS** | Benefisiar sahiblik |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **Katiblik** | Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikası üzrə yerli Katibliyi |

**AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏN SƏNAYESİNDƏ BENEFİSİAR SAHİBLİK MƏLUMATLARININ AÇIQLANMASI ÜZRƏ YOL XƏRİTƏSİNİN VAXT CƏDVƏLİ**

| VAXT | YOL XƏRTİSƏİNİN MÜVAFİQ KATEQORİYASI | GÖRÜLƏCƏK TƏDBİRLƏRİN ÜMUMİ TƏSVİRİ | MƏSUL ŞƏXS | MALİYYƏ YARDIMI |
|---|---|---|---|---|
| **Yanvar 2017 - Dekabr 2017** | 1-4, 6-9 | BS üzrə ümumi platformanın yaradılması və müvafiq qanunvericilik aktlarının işlənib hazırlanması məqsədilə müvafiq dövlət orqanları, biznes strukturları və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlıq etmək, müzakirə və məsləhətləşmələr aparmaq | ÇQ VƏ ARDNF | Tələb olunmur |
| **İyun 2017 - Dekabr 2019** | 11 | Yol Xəritəsinin icrasına nəzarət üzrə monitorinqin keçirilməsi | ÇQ | Tələb olunmur |
| **İyul 2017 - Dekabr 2018** | 2, 4, 6, 7-9 | Qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi, tələb olunan zəruri mexanizmlərin işlənib hazırlanması və lazımı qanunvericilik aktları layihələrinin tərtib olunması | ÇQ, Katiblik və kənar hüquq məsləhətçisi | Kənar hüquq məsləhətçisinin cəlb olunması üçün maliyyələşmə ARDNF tərəfindən təqdim ediləcək<br>CƏMİ – 446.000 AZN |

| | | | | |
|---|---|---|---|---|
| **Mart 2017 - Dekabr 2019** | 10 | Bilik və bacarıqların artırılması, habelə təbliğat işlərinin aparılması | Katiblik və seçilmiş kənar hüquq məsləhətçisi | ARDNF tərəfindən maliyyələşdiriləcək<br>CƏMİ – 90.000 AZN |
| **İyul 2019 - Dekabr 2019** | 3, 7 | BS üzrə açıq reyestrin yaradılması və digər təşkilati və hüquqi işlərin tamamlanması | Müvafiq dövlət orqanları | Dövlət Büdcəsi<br>CƏMİ – 64.000 AZN |

## İSTİFADƏ OLUNAN QISALTMALARIN ANLAYIŞI

| | |
|---|---|
| **ÇQ** | Çoxtərəfli Qrup |
| **BS** | Benefisiar Sahiblik |
| **ARDNF** | Azərbaycan Respublikasının Dövlət Neft Fondu |
| **Katiblik** | Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikası üzrə yerli katibliyi |